Adımız məfkurəmizdir
9-15 mart 2021-ci il
Türküstan
www.turkustan.info





Dilqəm ƏHMƏD

# Osmanlı ordusu və ya "Göydən enən mələklər"

## Osmanlı sultanı Azərbaycan haqqında: "Ömrümün ən səid dəqiqələridir"

***1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən Bakının işğaldan azad edilməsi və 2020-ci ildə II Qarabağ döyüşlərində Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü sonadək dəstəkləməsi Azərbaycan xalqında müsbət Türkiyə obrazının formalaşmasına səbəb olub. Qafqaz İslam Ordusunun Gəncədən Bakıyadək döyüşərək üç ay müddətində zəfər qazanması dövrün hərbçilərinin və siyasi liderlərinin xatirələrində maraqlı nüanslarla yadda qalıb. Bu xatirələr əsasında Azərbaycan xalqının nəzərində Türkiyənin hansı şəkildə yer aldığını müəyyənləşdirmək mümkündür.***

*Süleyman İzzət bəy əsərində Nuri paşanın Xaçmaz və Qubada necə qarşılanmaları barədə isə bunları yazıb: "Günortaya yaxın avtomobillərlə Qubaya getdik. Kəndlilər yollarda komandan heyətinin avtomobillərini dayandıraraq duz-çörək təqdim etdilər. Qubada hökumət malikanəsi önünə yığılan əhalinin alqışları arasında qəsəbəyə girdik. Dualar oxundu. Əhalinin orduya qoşulmaları tövsiyə edildi"*

Eləcə də 27 sentyabr – 10 noyabr 2020-ci il tarixlərində baş verən II Qarabağ savaşında Türkiyə Respublikasının siyasi və hərbi liderlərinin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı verdiyi açıqlamalar, türk millətinin əvəzsiz dəstəyi 102 ildən sonra hər iki ölkədə eyni ab-havanın yaranmasına səbəb oldu. 10 dekabr 2020-ci ildə baş tutan Zəfər paradında Türkiyə rəsmilərinin və əsgərlərinin iştirakı bu tarixi münasibətlərin ən ali zirvəsi idi.

4 iyun 1918-ci ildə Batumda "Səltənəti-Səniyyeyi-Osmaniyyə ilə Azərbaycan Hökuməti-Cümhuriyyəsi beynində mün'əqid mühadənət Müahidənaməsi" imzalandı. 11 maddəlik bu sənədi Osmanlı tərəfdən ədliyyə naziri və Dövlət Şurası rəisi Xəlil [Menteşe] bəylə Qafqaz Cəbhəsi Osmanlı Orduları komandanı fəriq (general) Mehmet Vəhib [Kaçı] paşa və Azərbaycan tərəfdən Milli Şura rəisi Məhəmmədəmin Rəsulzadə ilə xariciyyə naziri Məhəmmədhəsən Hacınskiimzaladılar. Müahidənamənin 4-cü maddəsində yazılmışdı:

"Azərbaycan Hökuməti-Cümhuriyyəsi tərəfindən tələb vüququnda hökuməti-Osmaniyyə intizam və asayişi-daxilinin təmin və iadəsi üçün lədə-l-icab silah qüvvətiylə müavinətdə bulunacaqdır".

Bu maddəyə əsasən, Mürsəl [Bakı] paşanın komandanlığı altında Beşinci Qafqaz diviziyası Azərbaycana göndərildi. Həmin diviziya ilə general-leytenant Əli ağa Şıxlinskinin komandanlığındakı Azərbaycan hərbi qüvvələri Qafqaz İslam Ordusu adı altında birləşdirildi, Osmanlı hərbiyyə naziri Ənvər paşa Orduya rəhbərliyi öz qardaşı Nuru [Killigil] paşaya tapşırdı.

***Ordunun Azərbaycana gəlişi və zəfər qazanması Azərbaycan xalqının milli hafizəsində həmişəlik yer tutdu.***

***

***Tədqiqatçı Mehman Süleymanovun yazdığına görə, Bakının azad edilməsindən bir gün sonra Qafqaz İslam Ordusunun rəsmi keçidi baş tutub:***

"Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi-keçidi keçirildi. Rəsmi-keçiddə Xəlil paşa, Nuri paşa, Əli ağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi-keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və hörmətli şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Bütün xalq küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib qoşunlarını salamlayırdı".



Mart soyqırımından sonra xilaskar ordunun Bakıya daxil olmasının xalq tərəfindən sevinclə, Əhməd Cavadın timsalında şeirlərlə qarşılanması təbii idi. Azərbaycanın dövlətqurma prosesinin qarşısının alınmasına yönəlmiş Bakı və ətrafında 30 min müsəlmanın qətlə yetirilməsi böyük faciə idi. Buna görə də 15 sentyabrda ordu Bakıya daxil olarkən hərarətlə qarşılanmışdı. Azərbaycan Cümhuriyyəti parlamenti üzvlərindən, "Açıq söz", "Azərbaycan" qəzetinin, "Yeni Kafkasya" jurnalının əməkdaşı Əhməd Həmdi Qaraağazadə yazırdı: "İslam ordusu komandanı Nuri paşa həzrətləri sevimli siması ilə Bakıya girərkən minlərlə xalq ona qəlbdən və vicdanimillidən qopan hörmətlə baş əyir, digər tərəfdən vüqarlı və ciddi duruşu dərin bir etimad təlqin edən gözləriylə Mürsəl paşa da sürəkli alqışlarla qarşılanır, böyük fədakar və qəhrəman vətənpərvər şəhid Nazim bəy də əl üstündə gəzdirilir, bütün türk ordusu xalqın minlərlə alqış tufanıyla türk oğlu türk vətənini, Bakını ziyarət edirdi".

Bakının azad edilməsində iştirak edən Osmanlı zabitlərindən Süleyman İzzət bəy 1918-ci ilin 27 sentyabrında Bakıda Azərbaycan Cümhuriyyəti hökumət üzvləri ilə tanışlıqdan sonra xüsusi mərasimlə Təzəpir məscidinə getdiklərini yazıb: "Məscidin bir tərəfi rus topçu mərmiləri ilə dağılmışdı. Bu məsciddə böyük bir qələbəliklə cümə namazını qıldıq. Münasib xütbələrlə mövludi-şərif oxundu və eyni mərasimlə ordu qərargahına qayıdıldı".

***Süleyman İzzət bəy əsərində Nuri paşanın Xaçmaz və Qubada necə qarşılanmaları barədə isə bunları yazıb: "Günortaya yaxın avtomobillərlə Qubaya getdik. Kəndlilər yollarda komandan heyətinin avtomobillərini dayandıraraq duz-çörək təqdim etdilər. Qubada hökumət malikanəsi önünə yığılan əhalinin alqışları arasında qəsəbəyə girdik. Dualar oxundu. Əhalinin orduya qoşulmaları tövsiyə edildi".***

Türk ordusu Şuşada da eyni sevgi ilə qarşılanmışdı. Qarabağın tanınmış nəslinin nümayəndəsi Həmidə xanım Cavanşirin yazdığına görə, hər kəs türklərin gəlişini gözləyir, Şuşada böyük pişvaz tədbirləri görülürdü. Şəhər bəzədilmiş, qala qapılarının girəcəyindən bir neçə zəfər tağı asılmışdı. Bu zəfər tağlarından birini də Şuşa qadınlarının adından Həmidə xanım ucaltmışdı. "Ağ kələğayı üzərində tikmə naxışla hilal və ulduz salmış və türkcə belə bir şüar yazmışdıq: "Gün gələcək, həqiqət güneşi doğacaq, əsarətdə qalan Ana Şərq istiqlal qazanacaq".

*"Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi-keçidi keçirildi. Rəsmi-keçiddə Xəlil paşa, Nuri paşa, Əli ağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi-keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və hörmətli şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi*

***I Dünya müharibəsinə qoşulan Osmanlı bu dövrdə ən ağır günlərini keçirməsinə baxmayaraq Azərbaycanın xilasına yetişmişdi. Qafqaz İslam Ordusu zabitlərindən Rüştü bəy Bakının azad edilməsindən 2 gün əvvəl Xoca Həsən kəndinin qərbindəki müşahidə mövqeyində olarkən yazırdı:***

(ardı gələn sayımızda)

Oxu, oxut, abunə ol!